Yeni Azərbaycan.- 2022.- 29 iyul.- S.8.

# Vətən müharibəsi filmlərdə...

## Azərbaycan və Türkiyə birgə serial çəkir

*M.BAYRAMLI*

**30 il ərzində Ermənistan tərəfindən işğal altında saxlanılmış torpaqlarımızı azad etdik və qəhrəman əsgərlərimizin şücaətini daha təsirli səviyyədə göstərmək üçün kino və seriallara ehtiyac var. Kino sahəsində Türkiyə ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində tarixi Zəfərə və Qarabağa həsr olunan müştərək filmlərin, serialların istehsalı, birgə film festivallarının keçirilməsi, hər iki ölkənin dövlət və özəl kino qurumları və kinematoqrafçıları arasında təcrübə mübadiləsinin aparılması kinoşünaslar tərəfindən də müsbət qiymətləndirilir. Kino vasitəsilə beynəlxalq arenaya çıxmaq üçün ölkələrimizin əhəmiyyətli hekayə və mövzuları, eləcə də bədii və sənədli filmləri var.**



Bu məqsədlə də, Azərbaycan və Türkiyə Vətən müharibəsi ilə bağlı birgə serial çəkir. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev mətbuata açıqlamasında bunu deyib. O, bildirib ki, Vətən müharibəsi ilə bağlı serialın çəkilişləri Türkiyənin məşhur “Bozdağ film” studiyası ilə birgə həyata keçirilir: “Serialın ilkin olaraq səkkiz bölümdən ibarət olması nəzərdə tutulub. İşlər tamamlanmaq üzrədir. Hadisələri qabaqlamaq istəmirəm, amma onu deyim ki, birinci seriyanın bu il təqdimatı gözlənilir”.

E.Əliyev qeyd edib ki, artıq ekran əsərinin işçi adı da məlumdur: “Amma serialın adını açıqlamaq hələ tezdir. Çünki dəqiq deyil. Serial Türkiyə və Azərbaycanın birgə əməkdaşlığının nəticəsidir. Ekran əsərində türkiyəli və azərbaycanlı aktyorlar rol alacaq. Çalışacağıq ki, bu əməkdaşlığımızın simvolu olsun”.

Bildirilib ki, serialın ilk bölümü bu il noyabrın 8-də - Zəfər Günündə yayımlanacaq. Qeyd edək ki, “Bozdağ film” studiyası Türkiyənin “Kuruluş Osman”, “Destan”, “Mehmetçik” və s. bir sıra məşhur seriallarının istehsalçısıdır.

Kinoşünaslar 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Qələbənin həm Türk dünyasında, həm də beynəlxalq platformada ən yüksək səviyyədə, eləcə də kino vasitəsilə təbliğində Türkiyə ilə işbirliyinin böyük önəm daşıdığını bildirirlər. Onların fikrincə, Azərbaycan-Türkiyə mədəni əməkdaşlığın əhəmiyyətindən bəhs edən ortaq layihələrin bütün dünyaya nümayiş etdirilməsi vacibdir.

Qeyd edək ki, bu layihə Azərbaycan ilə Türkiyə arasında olan bağlılığı daha da möhkəmləndirəcək. Qardaşlıq əlaqələrimizi həm də vizual ekrana çıxarmalı və bütün dünyaya nümayiş etdirməliyik. 44 günlük Vətən müharibəsi ilə yanaşı, tariximizlə bağlı məqamları həmin layihələrdə işıqlandırmaq lazımdır.